AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

**«Təsdiq edirəm»**
**Filologiya fakültəsinin dekanı**
**_________ fil.f.dok. E.H.Məmmədov**

# "DƏDƏ QORQUD" ELMİ-TƏDQİQAT LABORATORİYASININ ELMI-TƏDQİQAT İŞLƏRİNİN YERİNƏ YETİRİLMƏSİNƏ DAİR H E S A B A T

**BAKI -2016**

# "DƏDƏ QORQUD" ELMİ-TƏDQİQAT LABORATORİYASININ ELMİ-TƏDQİQAT İŞLƏRİ

## 1. GİRİŞ

"Dədə Qorqud" Elmi Tədqiqat Laboratoriyası Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1999-cu il, 98 №-li sərəncamına əsasən Təhsil Nazirliyinin 04 may 1999-cu il 303 №-li əmri ilə yaradılmışdır.

"Dədə Qorqud" eposunun tarix, etnoqrafiya, ədəbiyyat, dil və coğrafiya baxımından, habelə dünya eposları ilə müqayisəli şəkildə öyrənilməsi Azərbaycan folklorşünaslıq və ədəbiyyatşünaslığının müasir inkişaf mərhələsində olduqca önəmlidir.

"Dədə Qorqud" eposunun yazıya alınma tarixi, tədqiqi tarixi, poetik strukturu, türk xalqlarının, eləcə də Azərbaycan xalqının tarixində yeri, dastanın daha qədim qaynaqları sonrakı dastançılıq ənənələrimizdə mövqeyi və təsiri, qəhrəmanlıq və məhəbbət dastanlarımızın öyrənilməsində bir mənbə kimi istifadə olunması, eyni zamanda qədim və Orta əsrlər Azərbaycan tarixinin araşdırılması, tarixi qaynaq kimi əhəmiyyəti və s. kimi filoloji parametrlərin laboratoriyada ardıcıl və sistemli şəkildə elmi işlər formasında aparılması əsas məqsəd olmuşdur.

"Dədə Qorqud" laboratoriyası fəaliyyət göstərməyə başladığı zamandan həmin problemlərin araşdırılması üçün xüsusi iş planı hazırlamış və bu plan əsasında fəaliyyətə başlanmışdır. Qeyd olunan məsələlərin, filologiyaya aid fənlərin daha da səviyyəli tədrisi və mükəmməl elmi bazanın təşkili üçün "Dədə Qorqud" elmi-tədqiqat laboratoriyası Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası nəzdində fəaliyyət göstərir və həmin kafedranın müdiri AMEA-nın müxbir üzvi, professor Nərgiz Arif qızı Paşayeva ona rəhbərlik edir.

2016-cı ildə "Dədə Qorqud" elmi-tədqiqat laboratoriyası "Kitabi-Dədə Qorqud" eposunda tarixi şəxsiyyətlər" adlı problem üzrə araşdırma aparmışdır. Problemin tədqiqinə AMEA-nın müxbir üzvi, professor Nərgiz Arif qızı Paşayeva rəhbərlik etmişdir.

Deməli, 2016-cı ildə «Dədə Qorqud» ETL-i özünün elmi tədqiqat planına əsasən fəaliyyətini davam etdirmiş, cari il üçün nəzərdə tutulan elmi işləri yerinə yetirmişdir.

Belə ki, Dədə Qorqudun yaşadığı dövrdə Azərbaycan ictimai-siyasi vəziyyəti, feodal ziddiyyətləri, dini ixtilaflar aramsız davam edirdi. Belə bir şəraitdə oğuzların bu torpaqlar uğrunda apardığı mübarizə və müharibələr eposun Azərbaycan ədəbiyyatının müxtəlif formalarında öz əksini tapmışdır.

Qəhrəmanlıq eposunun ədəbi janrlarda təzahürü (qəhrəmanlıq, ailə məişət, məhəbbət motivləri və s.) mifik qaynaqlar və elmi materiallar əsasında araşdırılmış, müvafiq nəticələr əldə edilmişdir.

Dastanlardakı hadisələrin folklor və cəmiyyət baxımından diqqəti cəlb edir və araşdırmalarda fiziki-mənəvi problemlərə diqqət yetirilmişdir.

Digər problem – Dədə Qorqud dastanlarında əks olunmuş mifoloji obrazlar və mifik süjetlər dünya ədəbiyyatında mövcud olan epos və əsatirlərlə səsləşir, bəzi hallarda isə tam üst üstə düşür. Bununla bağlı laboratoriyanın elmi işlərinin bir istiqaməti də «Kitabi-Dədə Qorqud»un dünya ədəbiyyatına məxsus ədəbi nümunələrlə müqayisəli təhlilinə yönəlmişdir.

Bundan başqa, mifoloji, etnoqrafik və bu kimi digər səpkidə aparılmış tədqiqat işlərinin müəyyən qismi yerinə yetirilmişdir.

Nəzərdə tutulmuş üç illik tədqiqat işinin mərhələləri yerinə yetirilmiş, elmi məcmuə və konfrans materiallarında çap olunmuşdur.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ.

Hesabat dövründə «Dədə Qorqud» elmi-tədqiqat laboratoriyası aşağıdakı tərkibdə elmi iş aparmışdır.

| № | Adı, soyadı və atasının adı | Elmi dərəcəsi və elmi adı | Vəzifəsi | Doğulduğu tarix |
|---|---|---|---|---|
| 1. | Adil Məmməd oğlu Babayev | filologiya üzrə elmlər doktoru, professor | 0,5 ştat aparıcı elmi işçi | 1937 |
| 2. | Mobil İsmayıl oğlu Aslanlı | pedaqogika üzrə fəlsəfə doktoru, dosent | tam ştat böyük elmi işçi | 1955 |
| 3. | İlqar Zabut oğlu Hüseynov | filologiya üzrə fəlsəfə doktoru | tam ştat böyük elmi işçi | 1969 |
| 4. | Almara Vəzir qızı Nəbiyeva | filologiya üzrə fəlsəfə doktoru | tam ştat kiçik elmi işçi | 1963 |
| 5. | Samirə Şükür qızı Quliyeva | filologiya üzrə fəlsəfə doktoru | tam ştat kiçik elmi işçi | 1976 |
| 6. | İlhamə Məhəmməd qızı Babanlı | ---- | 0,5 ştat kiçik elmi işçi | 1978 |
| 7. | Ülviyyə Akif qızı İbrahimova | ---- | 0,5 ştat kiçik elmi işçi | 1981 |
| 8. | Aida Yaşar qızı Əzimova | ---- | 0,5 ştat kiçik elmi işçi | 1988 |
| 9. | Rəna Tofiq qızı Cavadova | ---- | tam ştat baş laborant | 1977 |
| 10. | Fərqanə Sədaqət qızı Əliyeva | ---- | tam ştat baş laborant | 1985 |
| 11. | Fərqanə Feyziyeva | analıq məzuniyyəti | tam ştat laborant | 1989 |
| 12 | Nigar Rüstəm qızı Məmmədli | --- | 0,5 ştat laborant | 1992 |

**3. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ TƏDQİQAT İŞLƏRİ - yoxdur**

**4. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR - yoxdur**

**5. "DƏDƏ QORQUD" ETL-də APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI VƏ YERİNƏ YETİRİLMƏSİ**

**Rəhbər:** AMEA-nın müxbir üzvi, professor
Nərgiz Arif qızı Paşayeva

**İSTİQAMƏT: Folklorşünaslıq**
**PROBLEM: Epos təfəkkürünün yazılı ifadəsi**
**MÖVZU: «Kitabi-Dədə Qorqud» eposunda tarixi şəxsiyyətlər**

**İş 1:** «Kitabi-Dədə Qorqud» eposunun Azərbaycan folklorunda yeri
**II mərhələ:** Epos və mif
**İcraçılar:** ***fil.e.dok, prof., aparıcı elmi işçi Babayev A.M., fil.f.dok., kiçik elmi işçi Nəbiyeva A., kiçik elmi işçi Əzimova A.***

Tədqiqat işində "Kitabi-Dədə Qorqud"un təsirilə yaranan "Koroğlu" dastanında rast gəlinən milli geyimlərin yaranma tarixi haqqında məlumat verilir. Araşdırmadan məlum olur ki, dastanlardakı milli geyimlər oğuz türkləri tərəfindən yaradılmış, min illər boyu təkmilləşdirilmiş və buradan da dünyaya yayılmışdır. Dastanların boylarında verilən ən dəyərli informasiyalardan biri geyim növləri haqqında bizə gəlib çatan təsəvvürdür. İgidlərin və xanımların mərasimlərdə növbənöv geyimləri, ləl və cəvahirat bəzəkləri öz aktuallığını qoruyub saxlamaqdadır. Dastanların oxşar cəhətlərindən biri də, "Kitabi-Dədə - Qorqud"da, Dədənin, "Koroğlu" dastanında da isə Aşıq Cununun igidlərə göstərdiyi sücaətə görə adla bərabər, libaslar da bəxşiş etmələridir. Bu cəhətdən "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposları böyük marağa səbəb olur.

Elmi-tədqiqat işində, həmçinin "Kitabi-Dədə Qorqud" dastanın yaranma tarixi, türk elinin həyat tərzi, məşğuliyyəti araşdırılmışdır. "Kitabi-Dədə Qorqud" dilimizin, ədəbiyyatımızın, dastan yaradıcılığımızın, ümumiyyətlə mədəniyyətimizin tarixini öyrənməkdə böyük əhəmiyyətə malikdir. Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur və dünya ədəbiyyatı tarixində xüsusi yer tutur. Burada "Kitabi-Dədə Qorqud" boylarında qəhrəmanlıq motivləri, Dədə Qorqud şücaət göstərən igidlərə ad qoyması, çətin zamanlarda xalqın köməyinə gəlməsi, müdrik məsləhətləri ilə onlara yol göstərməsi kimi məqamlar araşdırılmışdır.

Tədqiqatın materiallarından ali məktəblərin filologiya fakültələrində türkologiyaya aid kusrlarda istifadə etmək olar.Tədqiqat işinin elmi nəticələri beynəlxalq elmi konfransda aprobasiyadan keçmiş, konfrans materiallarında dərc olunmuşdur. Bundan əlavə elmi məcmuələrdə məqalə şəklində çap olunmuşdur.

**İş 2:** "Kitabi –Dədə Qorqud" dastanı və qədim türk dilinin araşdırılması
**II Mərhələ: "**KDQ" və qədim türk dastanlarının dili
**İcraçılar:** ***kiçik elmi işçi Babanlı İ.M., kiçik elmi işçi İbrahimova Ü.***

Tədqiqat işində "Dədə-Qorqud"da felin əsas nitq hissəsi kimi tarixi inkişafı, tədqiqi haqqında məlumat verilir. "Dədə-Qorqud" dastanlarında işlənmiş feillərdən söhbət açılır. Aydındır ki, feillər fonetik; leksik-semantik, morfoloji, sintaktik və s. xüsusiyyətləri ilə seçilərək böyük əhəmiyyət kəsb edir və Azərbaycan dilinin lüğət tərkibində olan sözlərin böyük, o cümlədən əsas qismini təşkil edir. Türk dillərində, o cümlədən Azərbaycan dilçiliyində nitq hisslərinin təsnifi məsələsi ilə bağlı müəyyən fikir ayrılıqları olsa da, bu işlərdə feil əsas nitq hissəsi kimi həmişə xüsusi geyd olunmuşdur. "Dədə-Qorqud" dastanlarında işlənən feillərə xüsusi diqqət yönəldilir, alınma və türk mənşəli feillərdən söhbət açılır. Həmçinin tədqiqat işində "Dədə Qorqud" dastanlarının dilində işlənmiş sadə cümlə və onun növlərindən söhbət açılır. Burada işlənmiş sadə cümlələrin işlənmə tezliyi Orxan-Yenisey abidələrinin dili ilə müqayisə edilir, cümlələrin inkişaf forması göstərilir. Müqayisə zamanı Göytürk yazılarında sadə cümlələrin sayı mürəkkəb cümlələrin sayına nisbətən çoxluq təşkil etdiyini görürük. Bu fikri "Kitabi-Dədə Qorqud" dastanlarına da aid etmək olar.

Elmi-tədqiqat işində, həmçinin мцасир Азярбайъан дилиндя ишлянян ъцмля цзвляри иля дастанда ишлянян ъцмля цзвляри арасында мцгайисяляр апарılмышдыр. Dастандан эютцрцлмцш нцмуняляр ясасында фелин формалары мцасир Азярбайъан дилиндя ишлянян фел формалары иля мцгайися едилмишдир.

**İş 3:** Folklor və həyat təzi
**II mərhələ:** Türk xalqlarının nağıl və rəvayətlərində sağlam həyat tərzi məsələləri
**İcraçı: ped.f.dok., böyük elmi işçi Aslanlı M.İ.**

"Duxa Qoca oğlu Dəli Domrul boyunda fiziki mədəniyyət motivləri". Məqalədə eposun ən ünlü qəhrəmanlarından olan Dəli Domrulun iradi-fiziki keyfiyyətlərindən bəhs olunur. 2. "Kəndirbazlıq". Məqalədə hünər, cəsarət, çeviklik və sair kimi fiziki keyfiyyətlər tələb edən Azərbaycan milli-xalq tamaşa oyunlarından olan Kəndirbazlıq barədə məlumat verilir. 3. "Oxuna oxşar oyunlar". Bu məqalədə türk xalqlarının hərbi-fiziki silah,həm də oxatma idman oyunlarında biri olan həmin fiziki təmzinlərin təşəklülü və əhəmiyyəti haqda söhbət açılır. 4. "Çəkəndə misri qılıncı..." Göstərilən məqalədə həmçinin türk xalqların hərbi həyatında, eləcə də idman aləmində geniş vüsət etmiş hərbi-fiziki aləti barədə müfəssəl açıqlamalar verilir. 5 "Dədə-Qorqud eposunda fiziki tərbiyə mədəniyyəti". Eposun bütün boylarında oğuz elinin el- ərənlərinin yüksək fiziki-iradi keyfiyyətləri önə çəkilir.

**İş 4:** «Kitabi-Dədə Qorqud» dastanının müasir ədəbiyyatımızda yeri
**II mərhələ:** Müasir dünya ədəbiyyatında mifologizasiya
**İcraçılar: f.f.dok., böyük elmi işçi *Hüseynov İ.Z.,* f.f.dok., kiçik elmi işçi *Quliyeva S.Ş.***

Tədqiqat işində Şərq (xüsusən türk) və Qərbi Avropa xalqlarına məxsus mifik düşüncənin həmin xalqların epik yaradıcılığına və ümumiyyətlə mədəniyyətinə təsiri öyrənilmişdir. Burada əsasən müqayisəli-tipoloji və müqayisəli-genetik tədqiqat metodlarından istifadə olunmuşdur. Nəticədə belə qənaətə gəlmək olar ki, Şərq mifik və epik düşüncəsi Avropa mifo-epik ənənəsinin formalaşması və inkişafında mühüm rol oynamış və ona təsir göstərmişdir. Bu əlaqələr sonrakı dövrlərdə qarşılıqlı şəkildə davam etmişdir.

Elmi-tədqiqat işində dünya eposunun ən qədim və misilsiz dəyərlərlə zəngin sənət nümunələrindən biri olan “Kitabi-Dədə Qorqud” dastanının mötivləri əsasında qələmə alınmış poeziya nümunələri tədqiq olunur. Burada qeyd olunur ki, “Kitabi-Dədə Qorqud” dastanı mötivlərinin müasir Azərbaycan poeziyasında araşdırılması elmi problem kimi mühüm əhəmiyyət kəsb edən vacib məsələdir. Orta əsrlərdən başlayaraq “Kitabi-Dədə Qorqud” dastanlarına olan maraq ötən yüz ildə daha da artmış, müxtəlif səpgili bədii əsərlərin yaranmasına səbəb olmuşdur. Məhz tədqiqat işində də əsas məqsəd Müasir Azərbaycan poeziyasında Dədə-Qorqud motivlərinə müraciət edən söz ustadlarının qələmə alımış olduğu xeyli sayda şeir nümunələri və poemalarını təhlilə cəlb etməkdən ibarət olmuşdur. Müasir Azərbaycan poeziyasındakı şeir nümunələrinin əksəriyyətinin “Kitabi-Dədə Qorqud” dastanlarının mətnləri ilə səsləşdiyi elmi fakt və konkret nümunələrlə diqqətə çatdırılmışdır.

## 6. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI

| № | İşin adı | İşin növü | Nəşriyyat, jurnal və s. adı | İşin həcmi | Müəlliflər |
|---|---|---|---|---|---|
| 1. | Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya | mono-qrafiya | Bakı: Elm, 2016 | 21 ç.v. | Babayev A.M. |
| 2. | Azərbaycan dili və nitq mədəniyyəti | dərslik | Təkrar nəşr, 2016 | 35 ç.v. | Babayev A.M. |
| 3. | Siyasi düşüncəmdə Heydər Əliyev fenomeni | kitab | Bakı: "UniCild" MMC, 2016 | 10 ç.v. | Babayev A.M. |
| 4. | Dədə Qorqud eposunda fiziki tərbiyə mədəniyyəti | kitab | Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2016 | 14.5 ç.v. | Aslanlı M.H |
| **Respublikada məqalə** | | | | | |
| 1. | Türk xalqları tarixində ən parlaq hadisə | məqalə | Azərbaycan məktəbi //Elmi-nəzəri, pedaqoji jurnal. № 2 (672). 2016. | s.5-10 | Babayev A.M. |
| 2. | Qarabağ meydan tamaşalarının özünəməxsusluğu | məqalə | AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu və Folklor İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən "İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. 15 iyul 2016-cı il | s. 34-38 | Nəbiyeva A.V. |
| 3. | XX əsr Qarabağ aşıqları: Aşıq Məhəmməd (Kolanı) və Aşıq Xosrov | məqalə | "Folklor və Etnoqrafiya" jurnalı. Bakı, 2016, № 3 | s.68-81. | Nəbiyeva A.V. |
| 4. | "Kitabi Dədə Qorqud"-un təsirilə yaranan "Koroğlu" dastanında milli geyimlər | məqalə | "Filologiya məsələləri" jurnalı, Bakı, 2016, № 9 | s. 413-418 | Nəbiyeva A.V. |
| 5. | Müasir Azərbaycan hekayələrində Qarabağ | məqalə | Azərbaycan xalqının ümummilli lideri | s.56-61. | Quliyeva S.Ş. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | mövzusu | | Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Filologiyanın aktual problemləri” mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 2016 | | |
| 6. | Təbiət anadır | məqalə | Görkəmli Türkoloq alim, Əməkdar Elm Xadimi, akademik Tofiq İsmayıl oğlu Hacıyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş “Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi” mövzusunda Respublika Elmi Konfrasının materialları. Bakı, 2 noyabr 2016-cı il | s. 292-296 | Quliyeva S.Ş. |
| 7. | “Tərsanə” romanında əməyin tərənnümü | məqalə | Bakı Dövlət Universitetinin Elmi Əsərləri. № 2. Bakı, 2016, | s. 17-21 | Quliyeva S.Ş. |
| 8. | “О проблеме восточно-западных мифоэпических взаимосвязей” (“Şərq-Qərb mifoepik qarşılıqlı əlaqələr probleminə dair”) | məqalə | Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal. № 4 (100), 2016. | s. 229-232 | Hüseynov İ.Z. |
| 9. | “Kitabi-Dədə Qorqud” qəhrəmanlıq eposu kimi | məqalə | Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal. № 4 (100), 2016. | s. 183-185 | Əzimova A. |
| 10. | “Kitabi-Dədə Qorqud” dastanında feilin formaları | məqalə | Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal. № 4 (100), 2016. | s. 124-126 | İbrahimova Ü. |
| 11. | “Kitabi-Dədə Qorqud” | məqalə | Dil və ədəbiyyat, | s. 57- | İbrahimova Ü. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | dastanında sadə cümlə | | Beynəlxalq elmi-nəzəri jurnal. № 3 (99), 2016. | 59 | |
| 12. | Rəsmi dairələrin I Türkoloji qurultaya açıq və gizli münasibəti | məqalə | Türkoloji qurultayın 90 illiyinə həsr olunmuş “Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar” mövzusunda Beynəlxalq konfransın materialları. I cild. Bakı, noyabr, 2016. | s. 46-49 | Babayev A.M. |
| 13. | “Kitabi-Dədə Qorqud” və Orxon-yenisey abidələrinin dilində sadə cümlə | məqalə | Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal. № 4 (100), 2016. | s. 139-142 | Babanlı İ.M. |
| 14. | “Dədə Qorqud”da feil, onun tarixi inkişafi və tədqiqi | məqalə | Filologiya məsələləri. 2016. | s. 130-136 | Babanlı İ.M. |
| 15. | “Duxa qoca oğlu Dəli Domrul boyu”nda fiziki mədəniyyət motivləri | məqalə | “Kitabi-Dədə Qorqud” və türk dünyası “Kitabi-Dədə Qorqud”un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. 29 dekabr 2015. | s. 192-198 | Aslanlı M.H. |
| 16. | Çəkəndə misri qılıncı... | məqalə | Qobustan. Sənət toplusu. 2/171, yay-2016 | s. 32-35 | Aslanlı M.H. |
| 17. | Kəndirbazlıq | məqalə | Qobustan. Sənət toplusu. 1/170, yaz-2016 | s. 25-27 | Aslanlı M.H. |
| 18. | Oxuna oxşar oğullar | məqalə | Qobustan. Sənət toplusu. 1/170, yaz-2016 | s. 28-31 | Aslanlı M.H. |
| 19. | “Kitabi-Dədə Qorqud” dastanında qadına münasibət | məqalə | “Kitabi-Dədə Qorqud” və türk dünyası “Kitabi-Dədə Qorqud”un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. 29 dekabr 2015. | s. 262-265 | Əzimova A. |

| Xaricdə məqalə | | | | | |
|---|---|---|---|---|---|
| 1. | The Peculiar of the Muslim Woman in the Neriman Nerimanov's Creativity | məqalə | "International Journal of Science and Research" (IJSR) jurnalının Volume 5 İssue, November 2016 | s. 404-406 | Əzimova A. |
| 2. | M.F.Akhundzadeh and it's woman images system | məqalə | Al-Farabi Kazakh National University, KazNU Bulletin? Philology series № 3 (161). Almatı "Kazak Universiteti" 2016 | s. 5-9 | Əzimova A. |
| **Rəyçi** | | | | | |
| 1. | Eşq duaları | Ön söz | Vahid Əli oğlunun "Ürəyimlə neyləyim" şeirlər kitabına ön söz. Bakı, 2016 | Səhifə 3-7 | Babayev A.M. |
| 2 | El şairinin bədii düşüncələri | Ön söz | Hacı Yusif Anabatlının "Qəlbimdən qələmə süzülən sözlər" şeirlər kitabına ön söz. Bakı, 2016 | Səhifə 3-7 | Babayev A.M. |

## 7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR – yoxdur.

## 8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

"Kitabi-Dədə Qorqud" dastanının geniş və hərtərəfli araşdırılması türkologiyanın nəzəri problemlərinin təhlil edilməsi türk ədəbiyyatşünaslığı və dillərinin tarixi, onların etnik kökü, mədəniyyəti ilə bağlı bir sıra məsələlərin həllində əhəmiyyətlidir. Tədqiqatın nəticələrindən türk dillərinin tarixi leksikologiyası, morfologiyası, sintaksisi, türk xalqlarının ədəbiyyatşünaslığı, etnoqrafiyası, etnogenezisi məsələlərinin öyrənilməsi, həmçinin türk dastançılıq ənənələrinin müqayisəli şəkildə tədqiqi zamanı istifadə etmək olar.

Tədqiqatın materiallarından ali məktəblərin filologiya fakültələrində folklora və türkologiyaya aid kusrlarda istifadə etmək olar.

## 9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ – yoxdur.

## 10. DÖVLƏT PROQRAMLARININ İCRASI – yoxdur.

## 11. «DƏDƏ QORQUD» ELMİ-TƏDQİQAT LABORATORİYASININ İŞÇİLƏRİNİN 2016-cI İLDƏ KONFRANS VƏ SİMPOZİUMLARDA İŞTİRAKI

**Aparıcı elmi işçi Babayev Adil Məhəmməd oğlu**

1. Türkoloji qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfrans. Bakı, AMEA, noyabr, 2016
2. "I Türkoloji Qurultayın türk xalqlarının mədəni-mənəvi birliyinin yaradılmasında rolu" mövzusunda Respublika elmi-praktik konfransı. I Türkoloji Qurultay və repressiya adlı məruzə. Bakı, ADPU, 12 oktyabr 2016
3. Birinci Türkoloji Qurultayın 90 illiyi münasibətilə keçirilən Respublika elmi-praktik konfrans. Bakı, ADU, 8 noyabr 2016

**Böyük elmi işçi Mobil Aslanlı Huntürk**

1. "Kitabi-Dədə Qorqud" və türk dünyası "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransı. 29 dekabr 2015.

**Kiçik elmi işçi Nəbiyeva Almara Vəzir qızı**

1. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu və Folklor İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən "İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları" mövzusunda Beynəlxalq Elmi Konfrans. 15 iyul 2016-cı il

**Kiçik elmi işçi Quliyeva Samirə**

1. Görkəmli Türkoloq alim, Əməkdar Elm Xadimi, akademik Tofiq İsmayıl oğlu Hacıyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş "Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi" mövzusunda Respublika Elmi Konfrası. Bakı, 2 noyabr 2016-cı il

**Kiçik elmi işçi Əzimova Aidə**

1. “Kitabi-Dədə Qorqud” və türk dünyası “Kitabi-Dədə Qorqud”un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransı. 29 dekabr 2015.

**12. ETL-də ELMİ KADRLARIN HAZIRLANMASI**

A.Y.Əzimova Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantıdır.

**13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARININ FƏALİYYƏTİ.**

Professor Adil Məhəmməd oğlu Babayev Azərbaycan Respublikası yanında Ali Attestasiya Komissiyasının nəzdində 5706.01 – Azərbaycan dili ixtisasından filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsinin nəticələrinin ekspertizası ilə məşğul olan Ekspert Şurasının üzvidir. Həmçinin onun rəhbərliyi ilə iki doktorant fəlsəfə doktorluğu dissertasiyasını bitirib müdafiə şurasına təqdim etmişdir.

**14. ELMİ AVADANLIQLAR HAQQINDA MƏLUMAT**

ETL-də kompüter və printerin alınmasına ehtiyac duyulur.

**15. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR**

Müqayisəli-tarixi folklorşünaslığın nəzəri problemlərinin təhlil edilməsi türk xalqları ədəbiyyatı və dillərinin tarixi, etnik kökü, mədəniyyəti ilə bağlı bir sıra məsələlərin həllində əhəmiyyətlidir. Tədqiqatın nəticələrindən türk ədəbiyyatı və dillərinin tarixi, etnoqrafiyası, etnogenezisi məsələlərinin öyrənilməsi, həmçinin “Kitabi-Dədə Qorqud” dastanlarının müasir türk filologiyası ilə müqayisəli şəkildə tədqiqi zamanı istifadə etmək olar.

Tədqiqatın materiallarından ali məktəblərin filologiya fakültələrində foklora aid kusrlarda istifadə etmək olar.

ETL əməkdaşları 2016-cı ildə aşağıda göstərilən işləri hesabata daxil ediblər: 4 kitab, 3 kitaba ön söz, 20 məqalə.

**Azərbaycan ədəbiyyatı tarixi**
**kafedrasının müdiri: prof. N.A.PAŞAYEVA**